# AZƏRBAYCAN RESPUBLİKASININ
# AUDİTORLAR PALATASI ŞURASININ
# QƏRARI

**Bakı şəhəri** **№ 245/6** **11 oktyabr 2013-cü il**

**Auditorlar Palatasının 2013-2015-ci illər və Palata Şurasının 2013-cü il üzrə iş planlarında dəyişikliklər edilməsi barədə**

Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 5 sentyabr tarixli 2421 nömrəli sərəncamı ilə təsdiq edilmiş "Korrupsiyaya qarşı mübarizəyə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı"nın "Audit xidmətlərinin təkmilləşdirilməsi" 13-cü istiqamətinin "Daxili audit haqqında qanunvericiliyin təkmilləşdirilməsi üzrə təkliflərin hazırlanması" 13.4-cü bəndini rəhbər tutaraq, "Daxili audit haqqında" Azərbaycan Respublikasının 2007-ci il 22 may tarixli 332-IIIQ nömrəli Qanununa əlavə və dəyişiklik edilməsi barədə" qanun layihəsi Auditorlar Palatası Şurasının 2013-cü il 11 iyun tarixli 242/3 saylı qərarına əsasən Azərbaycan Respublikasının Nazirlər Kabinetinə, Maliyyə Nazirliyə və Hesablama Palatasına göndərilmişdir. Hal-hazırda həmin qanun layihəsinə dair işlərin davam etdirilməsini nəzərə alaraq, Auditorlar Palatasının 2013-2015-ci illər və Palata Şurasının 2013-cü il üzrə iş planlarının - "Daxili audit" kitabının yeni nəşri" barədə 6.1.7-ci və 30-cu bəndlərinin icrası ilə əlaqədar olaraq Auditorlar Palatası Aparatının rəhbəri Q.Bayramovun xidməti məktubunu müzakirə edərək, Auditorlar Palatasının Şurası

## QƏRARA ALIR:

1. "Daxili audit" kitabının yeni nəşri" barədə Auditorlar Palatası Aparatının rəhbəri Q.Bayramovun xidməti məktubu nəzərə alınsın (əlavə olunur).
2. Auditorlar Palatasının 2013-2015-ci illər və Palata Şurasının 2013-cü il üzrə iş planlarının - "Daxili audit" kitabının yeni nəşri" barədə 6.1.7-ci və 30-cu bəndlərinin icrası daxili audit haqqında qanunvericiliyin təkmilləşdirilməsi həyata keçirildikdən sonra 2014-cü ildə yerinə yetilməsi məqsədəmüvafiq hesab edilsin.
3. Sədrin müşaviri A.Kərimova tapşırılsın ki, bu qərarın 2-ci bəndinə əsasən Palatanın 2013-2015-cü illər və Palata Şurasının 2013-cü il üzrə iş planlarında qeyd olunan "Daxili audit" kitabının yeni nəşri" barədə 6.1.7-ci və 30-cu müvafiq bəndlərinin iş planlarından çıxarılmasını təmin etsin və bu məsələnin 2014-cü ilin iş planına daxil olunmasını nəzərdə tutsun.
4. Palatanın Aparatına (Q.Bayramov) tapşırılsın ki, bu qərarın Palatanın internet saytında yerləşdirilməsi təmin edilsin.

**ŞURANIN SƏDRİ** **V.NOVRUZOV**